# THE PROBLEM OF SEARCH, DOUBT, AND COGNITION IN DESCARTES' THOUGHT

**Vusala Heydarova**[1]
**Aladdin Malikov**[2]

**UDC:** 1(092):165
**LBC:** 87.3, 87.4
**HoS:** 117
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.148-154

**Keywords:**

Doubt,
Rene Descartes,
Method,
Rationalism,
Principle

## ABSTRACT

Doubt occupies a central place in the philosophical system of Rene Descartes. R. Descartes saw doubt not only as distrust and hesitation, but as the initial and necessary stage of obtaining true knowledge. R. Descartes' methodological doubt distances a person from thinking far from logical analysis. It allows you to carefully filter every thought and accept only clear, accurate and substantiated knowledge. Methodological doubt is important not only for the improvement of philosophical thinking. It is also important for justifying the process of arriving at correct conclusions in scientific research.

R. Descartes believed that a universal method can be applied in all fields of knowledge, both in philosophy and in science. The method of doubt is based on the principles of analysis, synthesis, clarity and precision. It directs human thought systematically and consistently. According to R. Descartes, the value of knowledge depends not on its source, but on the systematicity of the method applied. Science and philosophy are not separate from each other, both are built on the same methodological basis.

R. Descartes' methodological doubt played a decisive role in the formation of research and evidence-based science. If there were no such principle, scientific knowledge would still develop based on religious and philosophical authorities. R. Descartes's doubt, principles of sequential analysis and clarity form the basis of modern scientific research culture. They play a revolutionary role in the systematic understanding of the human mind. R. Descartes' philosophical and methodological iris plays a role in the basic principles of both classical and modern scientific thought.

[1] Master's student, Faculty of Social Sciences and Psychology, Baku State University; Baku, Azerbaijan (corresponding author)
E-mail: vusala.heydarova7766@gmail.com
https://orcid.org/0009-0004-0129-3893
[2] Doctor of Philosophy in Philosophy, Associate Professor,
AcademyGate Publishing (ISNI: 0000000514175052); Baku, Azerbaijan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
**To cite this article:** Heydarova, V., & Malikov, A. [2025]. The Problem of Search, Doubt, and Cognition in Descartes' Thought. *History of Science journal*, *6*(5), pp.148-154.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.148-154

***Article history:***
*Received: 22.10.2025*
*Revised: 24.11.2025*
*Accepted: 01.12.2025*
*Published: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# DEKARTIN DÜŞÜNCƏSİNDƏ AXTARIŞ, ŞÜBHƏ VƏ İDRAK PROBLEMİ

**Vüsalə Heydərova**[1]
**Ələddin Məlikov**[2]

**UOT:** 1(092):165
**KBT:** 87.3, 87.4
**HoS:** 117
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.148-154

**Açar sözlər:**

Şübhə,
Rene Dekart,
Metod,
Rasionalzim,
Prinsip

## ANNOTASİYA

Rene Dekartın fəlsəfi sistemində şübhə mərkəzi yer tutur. R.Dekart, şübhəni yalnız inamsızlıq və tərəddüd kimi deyil, doğru bilik əldə etməyin ilkin və zəruri mərhələsi kimi görürdü. R.Dekarrtın metodik şübhəsi insanı məntiqi təhlildən uzaq düşüncədən uzaqlaşdırır. Hər fikri diqqətlə süzgəcdən keçirərək yalnız aydın, dəqiq və əsaslandırılmış bilikləri qəbul etməyə imkan verir. Metodik şübhə təkcə fəlsəfi düşüncədənin təkmilləşməsi üçün vacib deyil. Həm də elmi tədqiqatlarda düzgün nəticələrə gəlmək prosesini əsaslandırmaq üçün əhəmiyyətlidir.

R. Dekart hesab edirdi ki, bütün bilik sahələrində, həm fəlsəfədə, həm də elm sahəsində universal metod tətbiq edilə bilər. Şübhə metodu analiz, sintez, aydınlıq və dəqiqlik prinsiplərinə əsaslanır. İnsan düşüncəsini sistemli və ardıcıl şəkildə yönləndirir. R. Dekartın fikrincə, biliklərin dəyəri onların mənbəyindən deyil, tətbiq edilən metodun sistemliliyindən asılıdır. Elm və fəlsəfə bir birindən ayrı deyil, hər ikisi eyni metodik əsas üzərində qurulur.

R. Dekartın metodik şübhəsi tədqiqat və sübut əsaslı elmin formalaşmasında həlledici rol oynayıb. Əgər belə bir prinsip olmasaydı, elmi biliklər hələ də dini və fəlsəfi avtoritetlərə əsaslanaraq inkişaf edərdi. R. Dekartın şübhəsi, ardıcıl analiz və aydınlıq prinsipləri müasir elmi tədqiqat mədəniyyətinin əsasını təşkil edir. İnsanın ağlını sistemli şəkildə dərk etməsi üçün inqilabi rol oynayır. R. Dekartın fəlsəfi və metodoloji iris həm klassik, həm də müasir elmi düşüncədənin əsas prinsiplərinə rol oynayır.

---

[1] Magistrant, Sosial Elmlər və Psixologiya Fakültəsi, Bakı Dövlət Universiteti; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: vusala.heydarova7766@gmail.com
https://orcid.org/0009-0004-0129-3893
[2] Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
"AcademyGate Publishing"-in elmi tədqiqatçısı (ISNI: 0000000514175052); Bakı, Azərbaycan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
**Məqaləyə istinad:** Heydərova, V., & Məlikov, Ə. [2025]. Dekartın Düşüncəsində Axtarış, Şübhə və İdrak Problemi. *History of Science jurnalı*, *6*(5), səh.148-154.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.148-154

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 22.10.2025*
*Yenidən baxılıb: 24.11.2025*
*Təsdiqlənib: 01.12.2025*
*Dərc olunub: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ПРОБЛЕМА ПОИСКА, СОМНЕНИЯ И ПОЗНАНИЯ В МЫСЛЕНИИ ДЕКАРТА

**Вусала Гейдарова**[1]
**Аладдин Маликов**[2]

**УДК:** 1(092):165
**ББК:** 87.3, 87.4
**HoS:** 117
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.148-154

**Ключевые слова:**

Сомнение,
Рене Декарт,
Метод,
Рационализм,
Принцип

## АННОТАЦИЯ

В философской системе Рене Декарта сомнение занимает центральное место. Декарт рассматривал сомнение не только как недоверие и колебание, но как начальный и необходимый этап получения истинного знания. Методическое сомнение Декарта отдаляет человека от мышления, лишённого логического анализа. Тщательно пропуская каждую мысль через фильтр, оно позволяет принимать лишь ясные, точные и обоснованные знания. Методическое сомнение важно не только для совершенствования философского мышления, но и для обоснования процесса достижения правильных результатов в научных исследованиях.

Декарт считал, что во всех областях знания - как в философии, так и в науке - может применяться универсальный метод. Метод сомнения основывается на принципах анализа, синтеза, ясности и точности. Он направляет человеческое мышление системно и последовательно. По мнению Декарта, ценность знаний зависит не от их источника, а от системности применяемого метода. Наука и философия не отделены друг от друга; обе строятся на одной и той же методологической основе.

Методическое сомнение Декарта сыграло решающую роль в формировании исследования- и доказательно-ориентированной науки. Если бы такого принципа не существовало, научные знания до сих пор развивались бы, опираясь на религиозные и философские авторитеты. Сомнение Декарта, а также принципы последовательного анализа и ясности составляют основу современной культуры научных исследований. Оно играет революционную роль в системном осмыслении человеческого разума. Философское и методологическое наследие Декарта играет роль в основных принципах как классического, так и современного научного мышления.

[1] Магистрант, Факультет социальных наук и психологии, Бакинский государственный университет; Баку, Азербайджан (ответственный автор)
E-mail: vusala.heydarova7766@gmail.com
https://orcid.org/0009-0004-0129-3893
[2] Доктор философии по философии, доцент,
AcademyGate Publishing (ISNI: 0000000514175052); Баку, Азербайджан
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
**Цитировать статью:** Гейдарова, В., & Маликов, А. [2025]. Проблема поиска, сомнения и познания в мышлении Декарта. *Журнал History of Science*, *6*(5), с.148-154.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.148-154

***История статьи:***
*Поступила: 22.10.2025*
*Переработана: 24.11.2025*
*Принята: 01.12.2025*
*Опубликована: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

 HISTORY OF SCIENCE
2025, vol 6, issue 5, serial 23, pp. 148-154

## 1.Giriş

### *1.1.Şübhə metodu əsas tədqiqat obyekti kimi*

Rene Dekartın (1596-1650) fəlsəfi sisteminin mərkəzində şübhə anlayışı dayanır. R.Dekart hesab edirdi ki, insan hər fikri dərhal qəbul etməməlidir. Əvvəlcə fikri tənqidi düşüncə ilə yoxlamalıdır. R.Dekartın şübhə anlayışına əsaslanan yanaşması təkcə fəlsəfi düşüncə üçün deyil, həm də elmi araşdırmalarda düzgün nəticələrə gəlmək üçün mühüm əhəmiyyət daşıyır. R.Dekartın fikrincə, şübhə etmək inamsızlıq etmək deyil, əksinə, dəqiq və etibarlı biliklərə çatmaq üçün ilkin mərhələdir. R.Dekartın hesab edirdi ki, insan bütün biliklərini şübhə süzgəcindən keçirməli, yalnız ağılın dəqiq şəkildə təsdiqlədiyi bilikləri qəbul etməlidir.

R. Dekartın şübhə metodu Rae Langton'un *"Descartes' Meditations"* [Langton, 2005, s.4-18] əsərində öz əksini tapır. R. Dekart birinci meditasiyada bütün inanclarını şübhə altına alır, yalnız ağılın aydın və dəqiq şəkildə təsdiqlədiyi bilikləri qəbul etməyin vacibliyini vurğulayır. İkinci meditasiyada isə şübhə metodunun tətbiqi nəticəsində yeganə əmin bilik kimi insanın "düşünən varlıq" olmasını müəyyənləşdirir (Cogito, ergo sum - Düşünürəm, deməli, varam).

Fikrimizcə, R. Dekart üçün şübhə sadəcə inamsızlıq və tərəddüd kimi qiymətləndirilə bilməzdi. Çünki R. Dekart şübhəni insanın düşüncələrini sistemli şəkildə araşdırması, hər fikri diqqətlə təhlil etməsi, yalnız aydın, dəqiq və əsaslandırılmış biliklərə çatması üçün istifadə olunan bir metod kimi görürdü. R. Dekartın şübhə metodu insanı qeyri-tənqidi düşüncədən uzaqlaşmasına, eləcədə həm fəlsəfi, həm də elmi sahələrdə etibarlı nəticələr əldə etməsinə imkan yaradır. İnsanı dərin təhlilə yönəldir.

R.Dekartın şübhə metodu iki əsas istiqamətdə formalaşır. Birinci istiqamət, insanı sübutsuz məlumatlardan və əvvəlcədən formalaşmamış düşüncə tərzlərindən qorumaqdır. Tez-tez insanlar qarşılarına çıxan məlumatları - mətnlər, statistika, digər insanların fikirləri və elmi iddiaları qiymətləndirirlər. Lakin insanlar qarşılarına çıxan məlumatları çox vaxt əvvəlcədən formalaşmış inanclar, stereotiplər və şəxsi təcrübəyə əsaslanaraq edirlər. R.Dekart hesab edir ki, hər bir bilik yanlız şübhə süzgəcindən keçdikdən sonra etibarlı sayılır. Şübhə insanı səhv məlumatlardan qoruyur, yalnız məntiqi və təcrübəyə əsaslanan bilikləri qəbul etməyə imkan yaradır. R.Dekart şübhə metodunu öz sözləri ilə belə açıqlayır:

"Mən yalnız doğruluğunu dəqiq şəkildə bildiyim məlumat və fikirləri qəbul etməliyəm, yəni hər hansı bir şey haqqında tələskən qərar verməməliyəm. Əvvəlcədən formalaşmış mühakimlərim və ön qənaətlərimlə hərəkət etməməliyəm. Zehnimdə yalnız aydın, şübhə altına alınmayan ideyalar meydana çıxmalı və mənim mühakimələrimdə yalnız bu cür əsaslandırılmış biliklər qəbul edilməlidir" [Dekart, 2024, s.27].

İkinci istiqamət, insanın tam əsaslandırılmış bilik əldə etməsindən ibarətdir. R.Dekart üçün şübhə yalnız bir məqsəd deyil, əksinə, şübhə, insanın doğru bilik əldə etməsi üçün başlanğıc nöqtəsi, eləcə də insan düşüncəsinin sistemli şəkildə qurulmasının əsas vasitəsidir. R.Dekartın ikinci istiqamətində belə bir nəticə çıxara bilərik ki, insan hər şeyi şübhə altına alaraq yalnız etibarlı və dəqiq həqiqətləri müəyyən edə bilər. R. Dekartın irəli sürdüyü ikinci istiqamət göstərir ki, hər bilik yalnız şübhə süzgəcindən keçirdikdən sonra doğru sayıla bilər və elmi yanaşmalanın əsas prinsiplərinə uyğunluq təmin edə bilər. R. Dekartın məqsədi, insanın düşüncə sistemini elə bir quruluşa gətirməkdir ki, şübhə altına alınan bilik heç bir səhvə yol verməsin və həmişə qətiyyətli ola bilsin. R. Dekartın *Discourse on the Method* [Dekart, 2004, s.39] kitabında qeyd edildiyi kimi, insan öz inancında ən kiçik bir şübhə doğura biləcək hər şeyi yanlış hesab etməli, yalnız şübhə altına alınmayan aydın və möhkəm bilikləri qəbul edə bilər.

Fikrimizcə, şübhə metodu yalnız tənqidi düşüncə üçün vasitə deyil, həm də insanın mühakiməsini düzgün qurmaq və elmi prinsiolərə uyğun qərarlar qəbul etmək üçün əvəzsiz

bir çərçivədir. Şübhə vasitəsilə hər bir bilik yalnız tam əsaslandırıldıqda qəbul edə bilər. İnsan yalnız etibarlı və təsdiqlənmiş biliklər əsasında düzgün nəticələr çıxara bilər.

**2.Rene Dekartın riyaziyyat ilə münasibəti**

XVII əsrdə elmlə bağlı düşüncə "mənəvi, fəlsəfi və keyfiyyətə əsaslı izahlar"- dan "ölçülə bilən, mexaniki hərəkətlərə və riyazi qanunlara" doğru böyük bir keçid etmişdi. Thomas Paine'in *"The Age of Reason"* [1945] kitabında da qeyd edildiyi kimi, XVII əsrin elmi və riyazi yüksəlişi Avropa elmlərində mexanika, riyaziyyat və təcrübə yönümlü izahların üstünlüyünü göstərir.

Müasir fəlsəfəndə mühün rol oynamış R.Dekart da riyaziyyatın inkişafından ilham almışdır. Elm, xüsusilə riyaziyyatın inkişafı ilə çiçəkləndi, çünki riyaziyaat elmin təməli sayıla bilər. Omorebey qeyd edir ki, "Elm riyaziyyatsız inkişaf edə və çiçəklənə bilməz" [Omoregbe, 1998, s.79].

DR. Christian S. Agama və PROF. Jude A. Onuoha'ın *"Examining the Relationship between Knowledge and Metaphysics in Rene Descartes and the Development of Modern Science"* (2021) məqaləsində qeyd edilir ki, XVII əsrində Aristotelin fizikası tənqidə məruz qaldı və yeni metodlarla əvəz olundu, dünyaya yeni baxışlar təqdim edildi. İntibah dövründə elm artıq genişlənməyə başladı. Buna misal olaraq, Nikolay Kopernik (1473-1543), Qalileo Qaliley (1564-1642) və İsaak Nyuton (1643-1727) kimi görkəmli alimlərin fəaliyyətlərini göstərmək olar. Onlar elmi müşahidələr apararaq nəticələrini möhkəm əsasda qurmuşdular. İndibah dövründə elmin təbiəti və riyaziyyat elmin əsas istiqaməti olmuşdu. R.Dekart riyaziyyatı elmin əsas dili və metodik təməlinin mərkəzi hesab etmişdir. Fikrimizcə, R.Dekart ən çox riyaziyyata heyran idi, çünki onun nəticələri dəqiq və məntiqi sübutlarla əsaslanırdı. R.Dekart hesab edirdi ki, riyaziyyatın əsası bu qədər möhkəm və bərkdir ki, belə bir əsas üzərində başqa heç bir elmi sistem qurulmayıb.

"R.Dekart, fiziki kainatı riyazi baxımdan başa düşülə bilən mexanizmlər kimi təsəvvür edirdi. R.dekartın məqsədi bütün fiziki aləmi əhatə edən tək, vahid elmi sistem və riyazi fizika yaratmaq idi. R.Dekart üçün riyaziyyat elmi tədqiqatla eyni məna daşıyır. R.Dekart, başa düşür ki, riyaziyyat yalnız nizam və ölçü məsələlərini araçdlran sahələrə aiddir və bu, rəqəmlər, fiqurlar, ulduzlar, səslər və ya hər hansı digər obyekt olsun fırq etmir. Nəticədə, R.Dekart belə bir ümumi elmlin – "universal riyaziyyat"ın mövcud olmalı olduğunu anladı. Beləliklə, R.Dekart, doğru biliyi əldə etmək üçün riyazi metodu tətbiq etməyə qərar verdi" [Agama & Onuoha, 2021, s.10].

**3.Elmi düşüncənin formalaşmasında dekart metodunun rolu**

R. Dekartın *"Discourse on the Method"* [2004, İkinci Fəsil] əsərində qeyd edilir ki, "ağlın düzgün idarəsi və həqiqətin axtarışı" üçün ümumi, universal metod lazımdır. R.Dekart, universal metodu yalnız fəlsəfədə deyil, bütün idrak sahələrində, o cümlədən, elmdə tətbiq etməyi təklif edir.

Fikrimizcə, R. Dekart üçün ağıl sadəcə fəlsəfi mühakimə vasitəsi deyil, bütün bilik sahələrinin əsas hərəkətverici qüvvəsidir. Elm və məntiq eyni idraki prinsiplərə tabe olmalıdır. Düşüncənin ardıcıllığı, analiz və sintez yanaşma, aydınlıq və dəqiqlik prinsipləri yalnız abstrakt fəlsəfi məsələlərdə deyil, praktiki elmi tədqiqatlarda və empirik müşahidələrdə tətbiq edilə bilər.

R. Dekartın fikrincə, biliklərin dəyəri onların mənbəyindən deyil, metodundan asılıdır. Düzgün nəticə yalnız sistemli düçüncə məntiqi ardıcıllıq vasitəsilə əldə oluna bilər. R.Dekart qeyd edir ki, bütün elmlər eyni ağlın müxtəlif tətbiqləridir. Elm və fəlsəfə bir-birindın ayrı ayrılmazdır, hər ikisi eyni metodik üzərinə söykənir [Dekart, 2004, s.23-26].

Belə nəticəyə gəlmək olar ki, R. Dekartın metodu yalnız elmi düşüncənin formalaşmasında deyil, həm də insan ağlının özünü dərk etməsində inqilabi təsir göstərmişdir. R. Dekartın təklif etdiyi metodik şübhə, ardıcıl analiz və aydınlıq prinsipləri müasir elmi tədqiqat mədəniyyətinin əsasını təşkil edə bilər.

R.Dekartın metodik şübhə prinsipi, yəni hər bir biliyi sübutlanana qədər şübhə altına almaq tədqiqat və sübut əsaslı elmə keçid yaratdı. Əgər metodik şübhə olmasaydı, elm sınaq və eksperimentə deyil, dini və fəlsəfi avtoritetlərə əsaslanmağa davam edərdi. “Leybniz hesab edirdi ki, elmi bilik idrak vasitəsilə əldə edilə bilər. Klasik rasionalizmin əsas prinsipi odur ki, hər bir bilik və dünyanı dərk etmə yalnız ağıl vasitəsilə ola bilər. Digər tərəfdən, bəzi filosoflar tərəfindən rasionalizm protestantizmdə dini təlimi elmi yolla əsaslandırmağa və təlimi rasionallaşdırmaqa çalışan cərəyan olmuşdur” [Mehdi, 2008, s.13].

**4.Rene dekartın metodunun klassik rasionalizmə təsiri**

XVII əsr Avropası elmi inqilab dövrü idi. Kopernik, Qalileo və Nyuton kimialimlər təbiət haqqında köhnə dini-fəlsəfi baxışları sarıdırdı. XVII əsrdə R. Dekart “şübhə metodu” ilə biliyin yeni əsasını yaratdı. R. Dekart, biliklərin etibarlılığını ənənəyə və avtoritetə deyil, ağlın özünə əsaslandırmaqla orta əsr sxolastikasından uzaqlaşdı. Tam olaraq yeni dövrün – rasionalizmin başlanğıcı idi [Agama & Onuoha, 2021, s.10].

Fikrimizcə, R. Dekartın şübhə metodunun təsirini İmmanuel Kant (1724-1804) fəlsəfəsində yaradıcı rol oynamışdır. “Öncə fransızlar, onlardan sonra amerikanlar XVII əsri “zəka əsri” adlandırılırdı. Amma almanlar insan zəkasının qüdrətinə bir o qədər də inanmadıqlarından, həm zəkanın, həm də onun üzərində təşəkkül tapan elmin qüdrətinə şübhə ilə baxırdılar. Eləcə də Kant bu şübhə mövqeyində dayandı. Zəkanın qüdrətini vəsf etmək yolunu deyil, bu qüdrəti tənqid etmək yolunu tutdu” [Əsədov & Əsədova, 2024, s.40].

İ. Kantdan sonra şübhə metodundan fəlsəfi düşüncəsində yaradıcılıqla istifadə edən mütəfəkkirlərdən biri də İngilis tarixçi və filosofu Arnold Josef Toynbi (1889-1975) olmuşdur. A.Toynbi insan sivilizasiyasının inkişaf mərhələlərini təhlil edərək, modernizm və postmodernizm anlayışlarını bir-birinə yaxınlaşdırmış, postmodernizmi isə Qərb mədəniyyətinin yeni tarixi mərhələsi kimi qiymətləndirmişdir.

A.Toynbi hesab edirdi ki, ənənəvi dəyərlərin, yəni, millət, dövlət, humanizm, din və mədəniyyət anlayışlarının tənqidə və şübhə altına alınmalıdır. A.Toynbi, postmodern dövrü sistemlilik və harmoniyanın itməyə başladığı, sənətin ticarət predmetinə çevrildiyi, dini və mədəni dəyərlərin əvvəlki gücünü itirdiyi bir dövr kimi təsvir edir.

Belə hesab edə bilərik ki, A.Toynbi şübhə prinsipini yalnız fərqi biilik səviyyəsində deyil, bütöv bir mədəniyyətin və sivilizasiyanın inkişafını anlamaq üçün tətbiq etmişdir. A.Toybinin yanaşması, şübhəni dağıdıcı deyil, əksinə, yeni dəyərlərin yaranması üçün zəruri mərhələ kimi şərh edir [Əsədov & Əsədova, 2024, s.42].

**5.Nəticə**

Rene Dekartın fəlsəfi sistemi göstərir ki, biliklərə çatmağın əsası ənənəyə və hazır inanclara kor-koranə bağlılıq deyil, ağlın özüdür. Onun şübhə metodu insanı qeyri-müəyyən, əsaslandırılmamış mühakimələrdən uzaqlardıraraq həm fəlsəfi düşüncədən, həm də eləmi araşdırmalarda dəqiqliyi təmin edən furdamnetal yanaşmadır. R. Dekartın təsdiqlədiyi kimi, hər bir bilik ancaq tənqidi süzgəcdən keçdikdən sonra etibarlı sayılır və bu prosesin məqsədi inamsızlıq yaratmaq yox, düzgün nəticəyə aparan möhkəm zəmin qurmaqdır.

R. Dekartın fəlsəfəsi yalnız XVII əsrin elmi inqilabına xidmət etmədi, həm də müasir düşüncə tərzinin formalaşmasının əsasını qoydu. R. Dekartın ireli sürdüyü şübhə prinsipi bizə öyrədir ki, doğru bilik yalnız tənqidi düşüncə vasitəsilə əldə olunur və insan düşüncəsinin möhkəmliyi onun sual vermək, təhlil etmək və sübut axtarmaq qabiliyyətindədir. Bu baxımdan R. Dekartın metodu həm keçmişin elmi yüksəlişini izah edir, həm də gələcəyin idrak mədəniyyətinə işıq salır.

## 6.REFERENCES

1. Langton, R. (2005). *A study guide to Descartes' Meditations*. Bati Felsefesi Klasikleri Edition, Department of Linguistics and Philosophy. (in Turkish)

2. Descartes, R. (2004). *Discourse on the Method* (Trans. by A. Timucin & Y. Timucin). (in Turkish)
3. Paine, T. (1945). *The age of reason*. Watts and Company, London. (in English)
4. Omoregbe, J. (1998). *Epistemology: A systematic and historical study*. Lagos: Joja Educational Research & Publications Ltd., Lagos. (in English)
5. Agama, C. S., & Onuoha, J. A. (2021). Examining the relationship between knowledge and metaphysics in Rene Descartes and the development of modern science. *Journal of Philosophy and Ethics*, *3*(1), 9-16. https://doi.org/10.22259/2642-8415.0301002 (in English)
6. Mehdi, T. (2008). *A window to the truth*. Seda Publishing. ISBN: 5-86874-240-0 (in Azerbaijani)
7. Asadov, A., & Asadova, N. (2024). Immanuel Kant and postmodernism. *Scientific Works*, *1*(42), 39-49. (in Azerbaijani)

**ƏDƏBİYYAT**

1. Langton, R. (2005). *Descartes'ın Meditasyonlar'ına bir çalışma rehberi*. Batı Felsefesi Klasikleri Edisyonu, Dil Bilim və Felsefe Bölümü.
2. Dekart, R. (2004). *Yöntem üzerine konuşma*. (Tərc. A. Timuçin & Y. Timuçin).
3. Paine, T. (1945). *The age of reason*. Watts and Company, London.
4. Omoregbe, J. (1998). *Epistemology: A systematic and historical study*. Lagos: Joja Educational Research & Publications Ltd.
5. Agama, C. S., & Onuoha, J. A. (2021). Examining the relationship between knowledge and metaphysics in Rene Descartes and the development of modern science. *Journal of Philosophy and Ethics*, *3*(1), 9-16. https://doi.org/10.22259/2642-8415.0301002
6. Mehdi, T. (2008). *Həqiqətə pəncərə*. Səda Nəşriyyatı, ISBN:5-86874-240-0
7. Əsədov, A. & Əsədova, N. (2024). İmmanuel Kant və postmodernizm. *Elmi əsərlər*, *1*(42), 39-49.